

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 9 (23.421)

17 yanvar 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan şəhərində "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan şəhərində "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 8,8 milyon (səkkiz milyon səkkiz yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 yanvar 2020-ci il*

## Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Culfa rayonunda icbari tibbi sığortanın tətbiqinin təmin olunması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Culfa rayonunda icbari tibbi sığorta tətbiq edilsin.

2. Culfa Rayon Mərkəzi Xəstəxanasına publik hüquqi şəxs statusu verilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 2-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin Nizamnaməsini təsdiq etsin və fəaliyyətini təmin etsin;

3.2. icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar Culfa Rayon Mərkəzi Xəstəxanasının işçilərinin aylıq vəzifə maaşlarının 2020-ci il yanvarın 1-dən 50 faiz artırılmasını təmin etsin.

4. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Vergi Xidməti və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 16 yanvar 2020-ci il*

# Culfa rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanıb

Yanvarın 16-da Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək demişdir ki, muxtar respublikada səhiyyənin inkişafı istiqamətində görülən ardıcıl tədbirlər tibbi xidmətin səviyyəsini yüksəltmişdir. Həyata keçirilən səhiyyə islahatlarının ən mühüm cəhətlərindən biri də icbari tibbi sığortanın tətbiqidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamları ilə Sədərək, Şərur, Kəngərli, Şahbuz, Ordubad və Babək rayonlarında, həmçinin muxtar respublika və şəhər əhəmiyyətli tibb müəssisələrində icbari tibbi sığortanın tətbiqinə başlanmışdır. 2019-cu ilin dekabr ayından isə Culfa rayonunda icbari tibbi sığortaya keçidlə bağlı işlərə başlanılmışdır. Mərkəzi xəstəxanada yenidənqurma işləri görülmüş, müasir tibbi avadanlıqlar quraşdırılmışdır. Niyazi Novruzov yaradılan şəraitə görə səhiyyə işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.





İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov demişdir ki, muxtar respublikada icbari tibbi sığortanın tətbiqi səhiyyə xidmətinin keyfiyyətinin daha da artırılmasına töhfə verir. Bu sahədə tələb olunan kadr, avadanlıq, təlim, resurs və infrastruktur təminatı uğurla həyata keçirilmişdir. Ötən dövrdə rayon mərkəzi xəstəxanalarının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə, ümumilikdə, 292 adda 462 ən müasir tibbi cihaz və avadanlıq, 25 yeni təcili tibbi yardım avtomobili alınmışdır. Agentliyin Culfa rayonunda yaradılmış qeydiyyat məntəqəsinin də fəaliyyəti təmin edilmiş, məlumat bazaları hazırlanmış, icbari tibbi sığortanın tətbiqi məqsədi ilə tibb işçilərinə təlim və seminarlar keçirilmişdir. Samiq Sadıxov icbari tibbi sığortanın tətbiqi sahəsində qarşıya qoyulan vəzifələrin icrasında səylərin daha da artırılacağını bildirmişdir.

Tibb bacısı Nəsibə Hacıyeva Culfa Rayon Mərkəzi Xəstəxanasının kollektivi adından minnətdarlıq edərək demişdir: Muxtar respublikada səhiyyə sahəsinə göstərilən qayğı göz önündədir. Culfa Rayon Mərkəzi Xəstəxanasının yenidən qurulması, əhaliyə nümunəvi tibbi xidmətin göstərilməsi üçün hər cür şəraitin yaradılması səhiyyə sahəsinə göstərilən diqqətin bariz nümunəsidir. Tətbiq olunan icbari tibbi sığorta həm kollektiv, həm də əhali tərəfindən məmnunluqla qarşılanır. Nəsibə Hacıyeva yaradılan şəraitdən istifadə edərək əhaliyə hərtərəfli səhiyyə xidməti göstərəcəklərinə söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi münasibətilə rayon əhalisini və tədbir iştirakçılarını təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycanın ən qiymətli sərvəti onun insanlarıdır"*** fikrini xatırladaraq demişdir: İnsanların sağlamlığının keşiyində durmaq səhiyyə işçilərinin vəzifəsidir. Keyfiyyətli səhiyyə xidməti üçünsə lazımi şərait yaradılmalıdır. Culfa Rayon Mərkəzi Xəstəxanasında görülən işlər onu deməyə əsas verir ki, sakinlərə hərtərəfli tibbi xidmət göstəriləcəkdir. İcbari tibbi sığortanın tətbiqi ilə əlaqədar xəstəxanada 31 adda 57 müasir tibbi avadanlıq və ləvazimat alınaraq quraşdırılmışdır. Yeni avadanlıqlar müayinə və müalicələrin dəqiq aparılmasına imkan verəcəkdir.



Ali Məclisin Sədri demişdir: Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi tibbi heyətin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasına və əhalinin keyfiyyətli səhiyyə xidməti ilə təmin olunmasına hesablanmışdır. Culfa rayonunda 47 mindən artıq əhali yaşayır. Əhaliyə Rayon Mərkəzi Xəstəxanası, 13 həkim ambulatoriyası, 9 feldşer-mama məntəqəsi vasitəsilə tibbi xidmət göstərilir. Culfa Rayon Mərkəzi Xəstəxanasının ötən bir il ərzindəki fəaliyyəti təhlil edilərkən aydın olur ki, burada əhalinin sağlamlığı keşiyində dayanan peşəkar tibbi heyət formalaşmışdır. Bu da icbari tibbi sığortanın uğurlu tətbiqinə şərait yaradacaqdır.

Ali Məclisin Sədri xəstəxananın kollektivinə təşəkkür edərək demişdir: Muxtar respublikada səhiyyə sahəsində həyata keçirilən tədbirlər icbari tibbi sığortanın tətbiqinə tam imkan verir. Çünki lazımi səhiyyə infrastrukturu yaratmadan icbari tibbi sığortanı tətbiq etmək mümkün deyil. Artıq muxtar respublikanın səhiyyə müəssisələrində icbari tibbi sığortanın tətbiqi üçün hər cür şərait vardır. İcbari tibbi sığortanın baza zərfinə daxil olan 1525 adda tibbi xidmətin 638-i Culfa Rayon Mərkəzi Xəstəxanasında tətbiq olunacaqdır. Gələcəkdə digər tibbi xidmətlərin də tətbiqi olması üçün imkanlar mövcuddur.

Ali Məclisin Sədri yaradılan şəraitdən düzgün istifadə olunacağına və əhaliyə nümunəvi tibbi xidmət göstəriləcəyinə əminliyini bildirmiş, icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərlə maraqlanmışdır.

*Ardı 2-ci səhifədə*

Məlumat verilmişdir ki, icbari tibbi sığortanın tətbiqi məqsədi ilə Culfa Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma işləri aparılmış, Təcili tibbi yardım şöbəsi yenidən təşkil edilmiş, Hemodializ zalı genişləndirilmişdir. Xəstəxananın Poliklinika şöbəsində, Burun-qulaq-boğaz, Oftalmoloji, Stomatoloji və Fizioterapiya kabinələrində, Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsində, reanimasiya palatalarında, Laboratoriyada, Ginekoloji və doğuş bölməsində 31 adda 57 yeni tibbi avadanlıq və ləvazimatlar quraşdırılmış, palatalar mərkəzi oksigen sistemi ilə təmin edilmişdir.

Xəstəxanada sürətli internet şəbəkəsi yaradılmış, 46 kompüter və 5 printer alınmış, icbari tibbi sığortanın tətbiqində iştirak edən digər tibb müəssisələri ilə qarşılıqlı əlaqə yaradılmışdır. Hazırda xəstələrin qeydiyyatı "Səhiyyə informasiya idarəetmə sistemi" vasitəsilə həyata keçirilir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Culfa Rayon Mərkəzi Xəstəxanası üzrə qeydiyyat məntəqəsi və elektron məlumat bazası yaradılmış, mərkəzi server və digər avadanlıqlar vasitəsi ilə dünyanın qabaqcıl səhiyyə məlumatlarının idarəetmə sistemi olan "Medisoft" və "Fonet" Səhiyyə İnformasiya İdarəetmə Sisteminin fəaliyyəti təmin edilmişdir.



## Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilmişdir

Yanvarın 16-da Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir ki, Culfa rayonunda da icbari tibbi sığortanın tətbiqi sahəsində işlər başa çatdırılmışdır. Yaradılan şərait bu sahədə qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verəcəkdir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Culfa Rayon İcra Hakimiyyəti və Səhiyyə Nazirliyi ilə birlikdə rayonda icbari tibbi sığortanın tətbiqi ilə bağlı maarifləndirmə işləri aparmalı, görüşlər keçirilməli və sakinlərə ətraflı məlumat verilməlidir. Həmçinin göstərilən tibbi xidmətin keyfiyyəti daim diqqətdə saxlanılmalı, qaydalara əməl edilməli, nizam-intizam gücləndirilməlidir.



Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov, Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini-maliyyə naziri Səbuhi Məmmədov və Naxçıvan Muxtar Respublikasının Baş naziri Əlövsət Baxşıyev muxtar respublikada icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlər barədə aidiyyəti üzrə məlumat vermişlər.

Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının tərkib hissəsi kimi Culfa rayonunda icbari tibbi sığortaya keçidin mühüm əhəmiyyətə malik olduğunu bildirmiş, rayon əhalisi adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Culfa Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Kəramət Şirinov qarşıya qoyulan vəzifələrin uğurla icra olunacağını və əhaliyə keyfiyyətli tibbi xidmət göstəriləcəyini bildirmişdir.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin, Ağciyər Xəstəlikləri Dispanserinin icbari tibbi sığortaya keçirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 2019-cu ildə fəaliyyətinin yekunları haqqında keçirilən iclasda çıxış edən xidmətin rəisi Bəxtiyar İsmayılov bildirib ki, uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil, səhiyyə müəssisələrinin yerli məhsullarla təmin olunmasına, alınan qida məhsullarının keyfiyyətinə müntəzəm nəzarət edilib. Belə ki, 68 məktəbin bufetində, 10 təhsil müəssisəsinin bufet və yeməkxanasında və 19 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 16 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılıb, aşkar olunmuş nöqsanlar aradan qaldırılıb. Təhsil və məktəbəqədər tərbiyə müəssisələri üçün hazırlanmış 59 yemək menyusu xidmət ilə razılaşdırılıb. Məktəbli və tələbə geyim formaları istehsal edən 4 təsərrüfat subyektində istifadə olunan parçaların keyfiyyət göstəriciləri yoxlanılıb və müvafiq məhsullar sertifikatlaşdırılıb. Muxtar respublikada fəaliyyət göstərən məktəbli yarmarkalarında satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət üzrə monitorinqlər aparılıb və 23 halda məktəbli ləvazimatları sertifikatlaşdırılıb.

Bəhs olunan dövrdə təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin standartların tələblərinə uyğunluğu diqqətdə saxlanılıb, ümumilikdə, məhsulların 1870 halda, o cümlədən qida məhsullarının 1695 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin olunub.

Diqqətə çatdırılıb ki, 2019-cu il ərzində, ümumilikdə, 3274 ədəd məişət qaz cihazına baxış keçirilib, təhlükəsizliyi təmin olunmayan 126 ədəd məişət qaz cihazının idxalına və satışına icazə verilməyib.

2019-cu il ərzində standartların tələblərinə uyğun olmayan 18 min 615 manat dəyərində keyfiyyətsiz və ya kontrafakt məhsullar satışdan çıxarılıb.

Qeyd olunub ki, il ərzində muxtar respublika üzrə 421 ailə təsərrüfatına, eyni zamanda şəhər və rayonlar üzrə "Ailə təsərrüfatı məhsulları" festivalına və bayram yarmarkalarına çıxarılan ailə təsərrüfatı məhsullarının etiketlərinin hazırlanmasında müvafiq köməklik göstərilib. Ailə təsərrüfatı məhsullarından 581 halda nümunələr götürülərək standartların tələblərinə uyğun olduğu müəyyən edilib.

"Muxtar respublikada əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət üzrə birgə Tədbirlər Planı"nın icrasını təmin etmək məqsədilə 2019-cu il ərzində müvafiq komissiya tərəfindən 134 təsərrüfat subyektində 1040 işçinin tibbi müayinələri ilə bağlı monitorinqlər aparılıb.

Bildirilib ki, yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 167 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilib, 135 təsərrüfat subyektində aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılıb. 4 müəssisədə istehsal olunan arağın 75, pivənin 12, məhsul istehsalında istifadə olunan suyun isə 3 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilib. Aparılan monitorinqlər zamanı 114 bərbərxana və 63 gözəllik salonunda aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilib. Maarifləndirmə xarakterli baxış zamanı 124 təsərrüfat subyektində, 43 ət satışı mağazasında aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılıb.

Sonra çıxışlar olub.

* * *



Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində keçirilən kollegiya iclasını idarənin sədri Elvin Axundov açaraq bildirib ki, muxtar respublikada fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 yanvar 2020-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 171 milyon 191 min manat təşkil edir. Kredit qoyuluşu keçən ilin müvafiq dövrü ilə müqayisədə 68 milyon 510 min manat artıb.

Qeyd olunub ki, Mərkəzi Bankın kreditləşmədə əsas məqsədi aqrar sektorun, kiçik və orta sahibkarlığın inkişafına, ixraca yardım və daxili bazarın müdafiəsinə nail olmaqdır. Bu məqsədlə bank və kredit təşkilatları tərəfindən 2019-cu ilin yanvar-dekabr ayları ərzində 143 milyon 185 min manat kredit verilib. Verilmiş kreditlərin 12 milyon 434 min manatı kənd təsərrüfatı, 10 milyon 945 min manatı sənaye, 3 milyon 703 min manatı tikinti, 4 milyon 330 min manatı kommersiya, 31 min manatı balıqyetişdirmə sahəsinə, 120 min manatı səhiyyə və sosial xidmətlərin göstərilməsinə, 6 milyon 289 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə yönəldilib. 105 milyon 333 min manat həcmində isə digər kommunal, sosial və istehlak kreditləri verilib.

Diqqətə çatdırılıb ki, banklar tərəfindən 1 yanvar 2020-ci il tarixə 84 min 936 müştəriyə bank xidməti göstərilib. Xidmət olunan hesabların 74 min 781-i işlək hesab olub. Ötən il 28 min 767 müştəriyə yeni bank hesabı açılıb.

Vurğulanıb ki, əhalinin nağdsız ödənişlərə marağının artırılması məqsədilə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti ilə birgə mükafatlandırma tədbirləri keçirilib. Ümumilikdə, keçirilən 11 tiraj üzrə 2577 nəfərə 165 min manat dəyərində müxtəlif qiymətli hədiyyələr verilib.

Bildirilib ki, hesabat dövründə POS-terminalların və ödəniş terminallarının quraşdırılması daim diqqət mərkəzində saxlanılıb. Belə ki, 1 yanvar 2020-ci il tarixə muxtar respublikada POS-terminalların sayı 1278 olub, ödəniş terminallarının sayı isə ötən il ərzində 15 ədəd artaraq 54-ə çatıb. Həmin dövrdə POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi isə 45 milyon 551 min manat olub. Aparılan nağdsız ödənişlərin 14 milyon 717 min manatı POS-terminallar, 30 milyon 834 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib. 1 yanvar 2020-ci il tarixə elektron ödəniş kartı alanların ümumi sayı 270 min 641 ədəd təşkil edib.

İdarə sədri qeyd edib ki, "Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində hamiliyə verilən ixtisaslarla işin təşkili üçün ekspert qrupu yaradılıb."

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, cari ilin iş planı təsdiq olunub.

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən müşavirəni prorektor Azad Novruzov açaraq bildirib ki, 2018-ci ildə institutun yeni tədris korpusunun tikilib istifadəyə verilməsi nəticəsində 2019-cu ildə tələbə qəbulu planı artırılıb, üç yeni ixtisasa qəbul aparılmaqla bakalavr ixtisaslarının sayı on birə çatdırılıb. Yaradılmış şəraitə görə növbəti tədris ilində bakalavriat səviyyəsi üzrə qəbul planı 370-dən 430-a qaldırılıb. Əvvəlki ixtisaslarla yanaşı, 5 yeni ixtisas da qəbul planı layihəsinə əlavə olunub. Növbəti tədris ilindən magistratura təhsil pilləsi üzrə də əvvəlki ixtisaslarla yanaşı, Riyaziyyat müəllimliyi və



Təsviri incəsənət müəllimliyi ixtisaslarına qəbul aparılması planlaşdırılıb. İlk dəfə olaraq 2019-cu ildə Naxçıvan Müəllimlər İnstitutunda doktorant və dissertant hazırlığının aparılmasına icazə verilib, 5 ixtisas üzrə 10 yerə qəbul elan edilib.

Qeyd olunub ki, hesabat ilində 87 əməkdaş 87 mövzu üzrə elmi-tədqiqat işi aparıb. 2019-cu ildə institut əməkdaşlarının, ümumilikdə, 384 kitab, kitabça, monoqrafiya, məqalə və tezisi çap olunub. Ötən il ali təhsil ocağında 5 respublika və regional səviyyəli konfrans keçirilib.

Bildirilib ki, həmin dövr ərzində tələbələrin elmi-tədqiqat fəaliyyəti diqqətdə saxlanılıb, 149 tələbə TEC xətti ilə iş aparıb, konfranslar keçirilib.

Növbəti çıxışlarda xarici əlaqələr, ixtisasartırma və yenidən hazırlanma, tərbiyə işləri, elmi və elektron kitabxananın fəaliyyəti və digər sahələrdə aparılan məqsədyönlü işlər də tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

**Xəbərlər şöbəsi**

## Güləş Federasiyasında ötən ilin yekunları və qarşıya qoyulan vəzifələr ilə bağlı yığıncaq keçirilmişdir



*Yanvarın 16-da Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasında ötən ilin yekunları və qarşıya qoyulan vəzifələrlə bağlı yığıncaq olmuşdur.*

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov yığıncaqda çıxış edərək demişdir ki, muxtar respublikada idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə yaradılan idman federasiyaları, eləcə də yeni tikilən və ya əsaslı təmir olunan idman obyektləri idmanın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir. Mövcud idman infrastrukturu gənclərin idmana olan marağını artırır, istedadlı idmançıların yetişməsini təmin edir. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası 18 il bundan əvvəl – 2002-ci ildə yaradılmışdır. Ötən müddət ərzində federasiya tərəfindən güləş idman növlərini inkişaf etdirmək, kütləviliyə nail olmaq sahəsində bir sıra işlər görülmüşdür. Federasiyada yunan-Roma, sərbəst güləş, cüdo və sambo idman növləri üzrə bölmələr yaradılmış və bu bölmələrdə, ümumilikdə, 101 qrupda 1485 idmançı güləş idman növləri üzrə məşğələlərdə iştirak edir. 2019-cu ildə Güləş Federasiyası tərəfindən muxtar respublika, şəhər, rayon birincilikləri və çempionatları təşkil olunmuş, yarışların qaliblərinə diplom və hədiyyələr verilmişdir. Həmçinin idmançıların müxtəlifsəviyyəli beynəlxalq yarışlarda iştirakları təmin edilmişdir. Ötən il Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançıları 7 beynəlxalq, 3 respublika turniri, 11 Azərbaycan birinciliyi, 35 Naxçıvan Muxtar Respublika və rayon birinciliklərində, Azərbaycan milli və dövlət bayramları ilə əlaqədar birinciliklərdə iştirak etmişlər.

Azər Zeynalov 2019-cu ildə əldə olunan uğurların təməlində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin idmanın inkişafına, idmançılara göstərdiyi diqqət və qayğının dayandığını vurğulamış, federasiya üzvləri və idmançılar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxışında vurğulamışdır ki, 2019-cu ildə nazirlik tərəfindən kütləvi bədən tərbiyəsi və idman sahəsində 386 tədbir keçirilmişdir ki, bunlardan 5-i beynəlxalq, 2-si ölkə, 92-si muxtar respublika, 287-si isə rayon, şəhər miqyaslı tədbirlər, yoldaşlıq görüşləri olmuşdur. Eyni zamanda Naxçıvan idmançıları respublika səviyyəli yarışlarda 179, beynəlxalq miqyaslı turnirlərdə 165, dünya səviyyəli yarışlarda 5, Avropa çempionatlarında 20 olmaqla, ümumilikdə, muxtar respublikadan kənar yarışlarda 369 medal qazanmışlar. "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 10 dekabr 2018-ci il tarixdə keçirilən müşavirədə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarına bir sıra tapşırıqlar verilmişdir. Federasiyalar 2019-cu ildə öz işlərini verilmiş tapşırıqlara əsasən qurmuşdur. İdmanın ən qədim növlərindən biri olan güləş idman növü ötən il Naxçıvanın idman həyatında kütləviliyi və qazanılan uğurları ilə idman ictimaiyyətinin diqqət mərkəzində olmuşdur.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov 2019-cu ildə görülən işlər barədə ətraflı məlumat vermişdir.

İl ərzində uğur qazanan cüdo üzrə məşqçi Elvin Əliquliyev, güləş üzrə məşqçi Nurlan Muradov, hakimlər Barı Əliyev və İbrahim Musayev, cüdo üzrə uğur qazanan idmançı Abdulla İsmayılov, güləş üzrə uğur qazanan idmançılar Nicat Ocaqquliyev və Ramil İsmayılov mükafatlandırılmışlar.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə iş planı, keçiriləcək idman tədbirlərinin qrafiki təsdiq olunmuşdur.

Yığıncağın sonunda Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov federasiyada 2020-ci ildə də fəaliyyətin muxtar respublikada güləş idman növünün inkişafı məqsədilə qarşıya qoyulan vəzifələrin icrası istiqamətində qurulacağına əminliyini bildirmişdir.

**"Şərq qapısı"**

*Jurnalist araşdırması*

## "Soyqırımı nağılları" ilə bəzədilmiş "Naxiçevan", nar, ərik, üzüm davası, xilaskar 416



*(Əvvəli qəzetin 16 yanvar tarixli nömrəsində)*

… Ermənilərin iddiaları böyükdür. Bəzən düşünürsən ki, bu iddiaları başa düşmək üçün onlar kimi düşünmək lazımdır. Düşünə bilmirsənsə, özünü buna məcbur etməlisən. Heç olmasa bir anlıq. Məsələn, onlar bütün dünyaya car çəkirlər ki, "seçilmiş millətdirlər". Elə bu "seçilmiş olmaları" səbəbindən Tanrı onları Nuh tufanı ilə sınağa çəkib və ermənilər bu sınaqdan uğurla çıxaraq əzmli bir xalq olduqlarını ortaya qoyublar. İkinci sınaqları isə onların "soyqırıma məruz qalmalarıdır" və bu "hadisə"dən sonra da onlar həyatda qalmağı bacarıblar. Birinci sınaqda səbəb tufandırsa, ikinci sınaqda səbəb türklərdir. Bu üzdəniraq millətə görə, onlara "dənizdən-dənizə Böyük Ermənistan" qurmaq üçün torpaqlar vəd edilib (?!). Ona görə də hər bir erməni nəfəs aldığı müddətcə bu mübarizəni davam etdirməlidir. Belə xəstəliyə yoluxmuş millət torpağa, geyimə, mətbəxə, ümumiyyətlə, hər şeyə iddia edir. Məsələn, təxminən, bir ay bundan əvvəl Ermənistanda türkcə yayımlanan "Western Armenian" telekanalı Türkiyənin İqdır vilayətini Qərbi Ermənistan şəhəri kimi təqdim etmişdi. İqdırda yaşayan əhalinin böyük hiddətinə səbəb olan bu hadisəyə Türkiyə Azərbaycan Dostluq Dərnəkləri və Beynəlxalq Əsassız Erməni İddialarıyla Mübarizə Dərnəyi tərəfindən sərt reaksiya verilmişdi. Yaxud qonşu Gürcüstanda Samsxe-Cavaxetiya və Abxaziya bölgələrinə də ermənilər zaman-zaman torpaq iddiası irəli sürürlər. Rusiya Federasiyasının Krasnodar və Stavropol vilayətlərinə də iddialar ara-sıra mətbuatda öz əksini tapıb. Yaxud başqa misal: ermənilərə görə, Nuh Peyğəmbər quruya çıxdıqdan sonra ilk üzüm kolunu becərib və ondan ilk şərabı hazırlayıb, buna görə də üzüm və şərab ermənilərə aiddir və onların əli ilə bütün dünyaya yayılıb. Və yaxud ərik. Bu xəstə təxəyyüllü millətə görə, ilk əriyi ermənilər yetişdirib. Rusdilli Vikipediyanı zəbt etmiş ermənilər yazırlar ki, ərik bizdən Avropa və Asiyaya yayılıb. Bu meyvənin narıncı rəngdə olması bizim bayrağımızda da əks olunub. Çünki həmin narıncı rəng bizim "zəhmətkeş, bolluq torpaqlara malik olduğumuzu" göstərir. Buna görə ərik milli simvolumuzdur.

Ermənilərin digər "milli simvolları" isə nardır. Son illərdə onlar bu meyvənin üzərində daha çox təbliğat qururlar. Hətta qədim yunanları, romalıları bu meyvənin ilk dəfə yetişdirilməsi ilə bağlı məlumatlarına görə ittiham da edirlər. Əslində, onların narla bağlı iddiaları sovet dövründən başlayır. Hətta 1968-ci ildə bununla bağlı "Nar rəngi" adlı sənədli film də çəkmişdilər və iddia edirdilər ki, nar Ermənistanın yenilməz ruhudur. Bir neçə il bundan əvvəl Rostov şəhərində ermənilərə məxsus böyük bir restoranın adının dəyişdirilərək "Nar" ("Qranat") qoyulması da belə iddiaların təbliği məqsədini daşıyır. Sevindirici haldır ki, 2018-ci ildə Rostovda ilk dəfə Azərbaycan diasporunun təşkilatçılığı ilə "Nar" festivalı keçirilir. Festivalda şəhərdə yaşayan digər xalqların nümayəndələri də iştirak edir. Hətta yerli "Canlı Rostov" ("Jivoy Rostov") saytı bu haqda məqalə də yayımlayır və sonda qeyd olunur ki, Azərbaycan dünyada yeganə ölkədir ki, orada narın bütün növləri yetişdirilir.

Bir sözlə, ermənilərin istənilən əşyaya, torpağa, mətbəx və mədəniyyət nümunələrinə iddiaları tükənməzdir və onlar bir mərkəzdən – kilsədən idarə olunur. Hətta o kilsədən ki yazının birinci hissəsində də qeyd olunduğu kimi, 2007-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri onun ermənilər tərəfindən "Yeni Naxçıvan" adlandırılmasına görə Moskva şəhər meriyasına rəsmi etiraz məktubu da göndərmişdi. Çünki 2013-cü ildə Moskvada istifadəyə verilmiş Rusiya və Yeni Naxçıvan yeparxiyasının Erməni Apostol Kilsəsi (Rossiyskoy i Novo-Naxiçevanskoy yeparxii Armyanskoy Apostolskoy Tserkvi) dünyada Eçmiədzin kilsəsindən sonra ən böyük kilsə kompleksidir və ermənilərin Rusiya məkanında yalan üzərində qurulmuş ictimai, siyasi, mədəni, tarixi təbliğatını həyata keçirir. 2015-ci ildən isə burada erməni muzeyi fəaliyyət göstərir. Muzeydən isə danışmağa dəyməz. O ki qaldı bu mənfur millətin Rostovdakı "Naxiçevan"la bağlı təbliğatlarına…




Hazırda burada fəaliyyət göstərən *"www.Нахичевань.ru"* adlı portal "Don ermənilərinin həyatı, tarixi, mədəni zənginlikləri"nin təbliğatını həyata keçirir. Rus dilindəki bu informasiya portalında erməni müəlliflərin (bəzi hallarda rus) "Naxiçevandakı qədim erməni tarixini, mədəniyyətini, incəsənətini" gənc nəslə çatdıran məqalələri dərc olunur. Onlardan biri Georgi Baqdıkovdur. İxtisasca həkim-cərrah olan Baqdıkovun 20 il bundan əvvəl fəaliyyətə başlayan *"www.Naxiçevan.ru"* saytının yaradılmasında da əməyi çox olub. İki ay bundan əvvəl – 2019-cu ilin noyabr ayında isə "Naxiçevan-na Donu"nun yaradılmasının 240 illiyi burada böyük təntənə ilə qeyd olunub. Baqdıkovun bu yubileyə hədiyyəsi isə *"www.Нахичевань.ru"* adlı yeni kitabını təqdim etməsi idi. Kitabda "Naxiçevan-na Donu"da doğulmuş erməni elm və sənət adamları, Rusiyanın məşhur insanlarının bir neçəsinin vaxtilə burada olması haqqında, həmçinin "Naxiçevan"ın Rostov elmi və mədəni mühitinə "verdiyi töhfələrdən" ibarət məlumatlar toplanıb.



Burada yaşayan yerli ermənilərin mühüm təbliğat vasitələrindən biri də "Ноев-Ковчег" – "Nuhun gəmisi" qəzetidir. Bu qəzet 1997-ci ildən nəşr olunur və ayda bir dəfə olmaqla, 104 500 tirajla çıxır. Təbii ki, qəzetin əsas ideoloji xəttini Azərbaycan tərəfindən "daim hədələrə məruz qalan məzlum ermənilər", erməni və rus xalqlarının "minilliklərə" gedib çıxan dostluğu, "zəngin erməni mədəniyyəti"nin Rusiyada təbliği və sair təşkil edir. Bu qəzetin səhifələrində ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında baş verən mühüm hadisələrə də anındaca "reaksiya verilir". Xüsusilə son illərdə Naxçıvanda Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təşkil etdiyi bütün təlimlər "təhlil olunur", "Günnüt əməliyyatı"ndan, burada yaradılmış ordu birləşmələrindən, muxtar respublikanın Azərbaycan və Türkiyə üçün mühüm strateji dəhliz kimi əhəmiyyətindən, azərbaycanlıların "Köçəri" yallısını "özününküləşdirməsindən" və digər bu kimi mövzulardan bəhs olunur. Bu cür erməni maraqlarına xidmət edən təhlili reportajlara erməni politoloqlarından tutmuş bəzi hallarda bu yalanların təsir dairəsinə salınmış yerli rus "ekspertlər" də cəlb olunur. Buna görə də saxta təbliğatlar daim bu qəzetin ana ideologiyasını təşkil edir. Məsələn, bir müddət bundan əvvəl qəzetin Vadim Arutyunov adlı xüsusi müxbiri bir sənədli filmin çəkilişləri üçün İrəvandan Təbrizə qədər "Şərqi Azərbaycan vilayətində erməni izi"nin sorağı üçün gəlir. İran ərazisində "xeyli sayda belə tarixi izlərə", mədəni abidələrə "rast gələn" müxbir sonda Culfaya da baş çəkməli olur. Və İran ərazisindəki Culfadan Naxçıvan ərazisindəki "qədim erməni şəhəri Culfaya" bir xeyli tamaşa etdikdən sonra artıq 30 ildən çoxdur ki, burada heç bir erməninin yaşamadığını və bu şəhərdə heç bir erməni izinin qalmadığını söyləyir öz oxucularına. Burada öz marağına uyğun "müsahiblər"lə söhbətləşən müxbir reportajında Araz çayının kənarından da xeyli fotoşəkillər paylaşır. Yəni butipli materialları qəzetin səhifələrində tez-tez görmək mümkündür.

Ümumiyyətlə, bu gün Rostov-Don şəhərində – onun bir bölgəsi olan Proletarnı rayonunda erməni toplumun əsas məqsədi bu ərazilərdə hər addımbaşı öz "məzlumluqlarını" yaşatmaqdır. 5 il bundan əvvəl "erməni soyqırımının 100 illiyi" münasibətilə üzərində "Soyqırıma yox deyirik!" adlı abidəni və yaxud 2 il bundan əvvəl həmin rayonun Yerevan küçəsində, "Sevan" oteli ilə üzüzə binanın üzərinə vurulmuş (bu otel binasının bir hissəsində Ermənistanın buradakı konsulluğu yerləşir) "Osmanlı imperiyasının zülmündən qaçıb canını qurtarmış məzlum ermənilərin" xatirəsini yaşadan lövhəni buna misal göstərə bilərik. Üzərinə lövhə vurulmuş bu bina vaxtilə "Naxiçevan" şəhərinin idarəetmə binası olub və binada yerli erməni cəmiyyəti tərəfindən Türkiyədən guya məcburən qaçıb gəlmiş ermənilərin həyati məsələləri ilə bağlı toplantılar keçirilir, onlara köməkliklər edilirmiş. Bir sözlə, Proletarnı rayonunda, yəni ermənilərin bu qondarma "Naxiçevan"ında belə mövzularla tez-tez rastlaşmalı olursan.

Ancaq Rostov vilayətində bir abidə kompleksi də var ki, bu abidə ilə hər bir azərbaycanlı fəxr edə bilər. Bu, Taqanroq şəhəri yaxınlığında 130 və 416-cı Azərbaycan diviziyalarının şərəfinə ucaldılmış abidə kompleksidir. Bu abidə 1980-ci ildə ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə diviziyanın Taqanroq şəhərinin faşistlərdən azad edilməsində göstərdiyi şücaətin şərəfinə ucaldılmışdır. Ulu öndərin açılış mərasimində şəxsən iştirak etdiyi, Neklinovski rayonunun Sambekski qəsəbəsindəki "Sambek yüksəkliyi" adlanan yerdə qoyulmuş bu abidə 2011-ci ildə Azərbaycan Respublikasının maliyyə dəstəyi ilə təmir olunub. 2018-ci ilin may ayından isə burada xalq hərbi tarix muzey kompleksinin yaradılmasına başlanılıb. Kompleksin bu il mayın 9-da – faşizm üzərində qələbənin 75-ci ildönümündə istifadəyə verilməsi nəzərdə tutulur. Ancaq həqiqət budur ki, ermənilərin də kompakt yaşadığı Rostov vilayəti, o cümlədən Taqanroq bölgəsini faşistlərdən xilas edən bu qəhrəman diviziyaların Azərbaycanda yaradılması və döyüşçülərinin 90 faizdən çoxunun azərbaycanlılardan təşkil olunduğu haqqında heç bir erməni mediasında rast gələ bilməzsən…

**✍ Səbuhi HƏSƏNOV**

***Naxçıvan-Rostov-Don-Naxçıvan***

*Qış tüğyan edib bəndi-bərəni bağlamış, böyük çillənin ortalarında yağan qar artıq bütün cığırları tutmuşdu. Şaxtanın iliyə işlədiyi, gediş-gəlişin çətin olduğu Kərki bu çətinliklərlə bərabər, erməni quldurlarının hücumuna da məruz qalmışdı. Kərkililər dizə çatan qarın içində öz sinələrini düşmənə sipər edib yurd yerlərini qoruyurdular. Onların ürəyini göynədən, yuxularını ərşə çəkən isə təkcə qonşularının xəyanəti, gözlənilməz hücumu deyildi. Ölkəyə, respublikaya başçılıq edən səriştəsiz rəhbərlərin soyuqqanlılıqla mənfur düşmənin millətimizə divan tutmasına rəvac verməlari idi.*

# Həsrətin bitəcəyi gün çox yaxındadır



1988-ci ildə başlanan hadisələr 1989-cu il dekabrın sonlarında daha da gərginləşdi. Kərki kəndi ermənilərin həmin illərdə işğalçılıq siyasətinin ilk hədəfi idi. Kərkinin işğalı Bakıdakı 20 Yanvar faciəsinin, ermənilərin Naxçıvanın alınmaz qalası Sədərəyə silahlı basqınlarının, dəhşətli Xocalı faciəsinin, işğal olunan rayonlarımızın acı taleyinin başlanğıcı oldu. Bu, həmin vaxtlar idi ki, erməni şovinistləri ilə münasibət gərginləşib kulminasiya nöqtəsinə çatmışdı. Mənfurlar Sədərəkdən Kərkiyə gedən avtomobil yolunu kəsdiyindən gecələr Sədərəkdən Kərkiyə yük maşını ilə, bəzən də piyada 30-40 nəfər könüllü müdafiəçi gedir, gecəni səhərə kərkililərlə birlikdə kəndin keşiyini çəkirdilər. Sonralar həmin könüllülərə Şərurdan və Naxçıvandan gələnlər də qoşuldular. Ancaq çox keçmədi ki, Kərki ilə Sədərək arasında əlaqə tamam kəsildi, Kərkinin müdafiəçilərinə ərzaq və silah-sursat çatdırmaq da problemə çevrildi. Lakin bu kəndin müdafiəçiləri qəhrəmanlıqla vuruşub son ana qədər düşmənə ciddi müqavimət göstərdilər.

Hadisələrin şahidlərindən polis veteranı, 67 yaşlı Azər Seyidov deyir ki, həmin günlərdə silahlı dəstələr, hərbi texnika sərhədlərimizə toplanırdı. Ermənilər illərdir, həyata keçirə bilmədikləri mənfur planlarını reallığa çevirməyə, təkcə Kərkini yox, bütövlükdə, muxtar respublikanı işğal etməyə can atırdılar. Kərkidəki qadın və uşaqların, qocaların orada qalması çox təhlükəli olduğu üçün onlar yanvarın 15-də kənddən çıxarılmışdı. Adamları ata-baba yurdlarına qaytarmaq, təhlükəsiz yaşayacaqlarına əminlik yaratmaq üçün yanvarın 17-də 17 nəfərlə yenə Sədərək kəndindən Kərkiyə yola düşdük. Bizə Naxçıvan şəhərindən könüllülər də qoşulmuşdu. Kəndə çatanda artıq şər qovuşmuşdu. Dəstəmiz kənddən xeyli aralıda dayandı, oradakı vəziyyəti öyrənmək üçün hər yeri diqqətlə nəzərdən keçirdikdən sonra hərbçilərdən başqa bir kimsənin olmadığını gördük. Kəndi ermənilərin basqınından müdafiə etmək üçün yaradılan postlarda növbə ilə keşik çəkirdik, silahımız yox dərəcəsində idi. Erməni yaraqlıları isə o dövrün ən yaxşı silahlarına, kəndi yüksəklikdən atəşə tutmaq imkanına malik idilər. Strateji yüksəkliklər onların əlində olduğundan Kərkini Sədərəyə birləşdirən avtomobil yoluna da nəzarət edirdilər. Yanvarın 18-də kənd səhər saat 4 radələrindən şiddətli atəşə tutuldu. Xəbər yayıldı ki, silahlı ermənilər Kərkiyə hər tərəfdən basqın ediblər, kənd mühasirədədir, oradakıları əsir tutub aparmaq istəyirlər. Səhər saat 4-dən axşama qədər atışma getsə də, müasir silahlarla silahlanmış saysız erməni döyüşçüləri qarşısında Kərkinin müdafiəçiləri son damla qanlarına qədər vuruşmaq niyyətində idilər. Amma 70 il sərvətlərimizi amansızlıqla talayıb aparan rus dövlətinin hərbçilərinin “daha sizin təhlükəsizliyinizi qorumağa bizim gücümüz çatmır, təcili kəndi tərk etməsəniz, hamınızı girov götürəcəklər” xəbərdarlığı onları çıxılmaz vəziyyətdə qoydu. Erməni hücumu, rus hərbçilərinin “çıxın!” təhdidi, silah-sursat çatışmazlığı kərkililərin yaşayış yerini tərk etmələrinə səbəb oldu. Şərur Rayon Polis Şöbəsinin 3 əməkdaşı 30 nəfərədək Kərki sakini ilə birlikdə 2 mindən çox silahlı erməniyə qarşı vuruşsa da, hər qarışında bir neçə minilliyin tarixini yaşadan qədim oğuz yurdu, beləcə, ermənilərin əlinə keçdi. Daha doğrusu, yanvarın 18-də SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə muxtar respublikanın Sədərək rayonunun Kərki kəndi ermənilərə verildi.

Tanınmış alimlərin fikrincə, Naxçıvan Muxtar Respublikasının şimal-qərbində, Sədərək kəndinin 8-10 kilometrliyində yerləşib, 960 hektara yaxın ərazini əhatə edən qədim Azərbaycan kəndi olan Kərkinin adı türk tayfası ilə bağlıdır. Bu toponimə ölkəmizdə və bir sıra türkdilli xalqların yaşadıqları ərazilərdə də rast gəlmək olur. Qədim yurd yerimiz olan Qarabağ torpağında Kərkicahan şəhəri, Qərbi Azərbaycanın Göyçə mahalında Kərkibaşı kəndi, Türkmənistanda Kərki rayonu və şəhəri, həmin respublikanın Cərco vilayətində Kərkiçi dəmiryol stansiyası, “Kərkidağ” toponimi də bu tayfa adından qaynaqlanıb. Bütün bunlar onu göstərir ki, yaşayış məntəqəsi tarixən azərbaycanlıların məskunlaşdığı yurd yeri olub. Bu qədim yaşayış məskənində vaxtilə aşkar olunmuş nekropol, müdafiə istehkamları, daş qutu qəbirlər və digər maddi mədəniyyət nümunələri arxeoloqların fikrincə, eramızdan əvvəl III minilliyin sonu və II minilliyə aid edilir. Kərki kəndi ərazisindəki “O tay”, “Sulu zağa”, “Bəzirxana”, “Köhnə Kərki”, “Dəlik daş”, “Sənəm zağası”, “Gavurqala”, “Cəhənnəm dərə”, “Şırran”, “Qızıl daş”, “Qurdbaba”, “Alma yokkuşu”, “Qırmızı güney”, “Şurut bulağı” kimi toponimlər də bu torpağın qədim tarixindən xəbər verir.

Bu qədim kəndin sakinləri öz el-obalarına yurd-yuvalarına, torpağa bağlı insanlardır. Vaxtilə kəndin balı, meyvələri, istixanalarda yetişdirdikləri gülləri adla deyilib. Kənd sakinləri, əsasən, heyvandarlıq, bağçılıq, arıçılıq, gülçülüklə məşğul olub. Onlar öz bərəkətli torpaqlarına qayıdacaqları, əvvəlki kimi yenə də əkin-biçinlə, heyvandarlıqla məşğul olacaqları günü səbirsizliklə gözləyirlər.

Kərki muxtar respublikamızın işğal edilmiş yeganə kəndidir. 30 ildir ki, öz doğma ocaqlarından ayrı düşən kəndin sakinləri muxtar respublikanın Kəngərli rayonunun ərazisində yaradılan Yeni Kərki kəndində məskunlaşıblar. Hər cür dövlət qayğısı ilə əhatə olunan bu dağ vüqarlı insanlar qədim oğuz yurdu olan kəndlərinin düşmən işğalından azad ediləcəyinə, yenidən öz dədə-baba torpaqlarına qovuşacaqları günün uzaqda olmadığına inanırlar. Bu əminliyi doğuran isə müstəqil dövlətimizin, ordumuzun güc və qüdrətinin ilbəil artmasıdır..

Ötən illərin o ağır günlərini hər an xatırlayırıq. Xatırlayırıq ki, unutmayaq. Unutmayaq ki, tarixi qələbələrin əzəli torpaqlarının işğalı ilə barışmayan millətlərin parlaq taleyi olduğunu sübut edək. Necə ki 2016-cı ilin Aprel, 2018-ci ilin Günnüt zəfərlərində dünya buna şahid oldu. Xain qonşularımız güclü himayədarlarının dəstəyi nəticəsində qazandıqları “qələbəni” sonsuza kimi qoruya bilmədilər, bilməyəcəklər də. Çünki qədim Naxçıvanın keşiyində inamla dayanan Əlahiddə Ümumqoşun Ordu muxtar respublikamızın müdafiəsində ona həvalə edilmiş missiyanı şərəflə yerinə yetirir və istənilən vaxt işğalda olan torpaqlarımız uğrunda döyüşlərə atılmağa hazırdır. Azərbaycan xalqı buna əmindir ki, Lələtəpədə, Qızılqayada dalğalanan bayraq sabah Kərkidə, gözəl Qarabağımızda da dalğalanacaq. Nə qədər ki əzəli-əbədi torpaqlarımız düşmən işğalı altındadır, Azərbaycan əsgəri silahını yerə qoymayacaq! Dilində Vətən nəğməsi, könlündə torpaq yanğısı, ürəyində düşmənə nifrət hissi ilə döyüşə atılacağı günü səbirsizliklə gözləyir. Çünki 20 faiz torpağı işğal altında olan dövlətin “Hər evi səngər, hər vətəndaşı əsgərdir”. Yolumuzu gözlə, Vətən torpağı, sənə qovuşacağımız, o dağlara zəfərlə qayıdacağımız gün çox yaxındadır!..

**Ramiyyə ƏKBƏROVA**

# Humanitar tibbi aksiya başa çatıb



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gəlməsi ilə aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinələrinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir.



Yaranmış ənənə çərçivəsində Türkiyə Respublikası Hacəttəpə və Ankara Tibb universitetlərinin Endokrinologiya və metabolizma kafedrasında, həmçinin ABŞ-ın Georgiya ştatındakı Emori Universitetində təhsil almış, Türkiyə, ABŞ və Avropa Endokrinoloji Cəmiyyətinin üzvü, endokrinoloq Rövşən Həsənovun rəhbərliyi ilə Referans Medikal Qrupun daxilində fəaliyyət göstərən xəstəxanaların 12 nəfərlik yüksəkixtisaslı həkim heyəti yanvarın 14-dən Naxçıvan Diaqnostika Müalicə Mərkəzində ikigünlük humanitar aksiya keçirib.

Qastroenteroloq-endoskopist, travmatoloq-ortoped, neyrocərrah, terapevt, aritmoloq-invaziv-kardioloq, ümumi cərrah, uroloq-androloq, dermatovenereoloq və digər ixtisaslı həkimlər heyətdə təmsil olunublar.

Aksiya zamanı pasiyentlər müxtəlif xəstəliklər üzrə ödənişsiz tibbi müayinələrdən keçiriliblər. Xəstələrdə müşahidə olunan zob düyünlərinin biopsiyası və ultrason müayinələri aparılıb, şəkər xəstəlikləri və onların risk amilləri araşdırılıb, müraciət edənlərə tibbi məsləhət və tövsiyələr verilib. Aksiya müddətində 1085 nəfər ambulator müayinələrlə əhatə olunub.

Cərrah uroloq-androloq Bəhruz Ağayev tərəfindən bir xəstədə TUR - lazerlə prostat əməliyyatı icra olunub. Aritmoloq, invaziv-kardioloq İsmayıl Göyüşov isə bir xəstədə ötən il Naxçıvan Diaqnostika Müalicə Mərkəzində quraşdırılmış Almaniya istehsalı “SİEMENS ARTİS ZEE” markalı döşəmətipli müasir angioqrafiya aparatı ilə koronar angioqrafiya müayinəsi aparıb. Xəstələr palatalara köçürülüb, birgünlük həkim nəzarətindən sonra təxliyə olunublar.

Aksiyada iştirak edən muxtar respublika sakinləri onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirib, belə xeyirxah aksiyaların təşkilatçı və icraçılarına minnətdarlıqlarını bildiriblər.

Tibbi müayinələrlə əhatə olunan 73 yaşlı şəhər sakini Fazil Qurbanov qeyd edib ki, belə aksiyaların təşkili əhalinin sağlamlığına göstərilən ən böyük qayğıdır. Növbəti aksiyada müayinələr nəticəsində müraciət edənlərin sağlamlıqları ilə bağlı problemlərinin aşkara çıxarılmasının, müalicələrinin təşkil edilməsinin şahidi oldum. Bakı şəhərindən gələn həkimlərdən Xanoğlan Qənbərov məni müayinədən keçirdi. Laborator təhlillər, elektrokardioqrafiya, ultrasəs müayinələrindən sonra müvafiq təyinatlar verdi. Hazırda müalicəm davam edir.

Keçirilən növbəti humanitar aksiyada yerli həkim və orta tibb işçiləri də iştirak ediblər. Bu onların peşə bacarığının yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Müasir müalicə metodlarının öyrənilməsi və tətbiqi üçün yüksəkixtisaslı mütəxəssislərin iş təcrübəsindən istifadə olunur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Şahmat üzrə növbəti interaktiv dərs keçilib





Muxtar respublikamızın ümumtəhsil məktəblərində şahmat dərslərinin tədrisi səviyyəsinin artırılması, uşaq-gənclər şahmat məktəblərinin fəaliyyətinin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Şahmat Federasiyası ilə birlikdə mütəmadi olaraq şahmat məşğələləri də təşkil edir.

Həmin tədbirlərin davamı olaraq dünən Naxçıvan Şahmat Mərkəzində “Yarımaçıq debütlər, “Fransız müdafiəsi”nə aid oyunların təhlili” mövzusunda növbəti interaktiv dərs keçilib. Dərsi beynəlxalq dərəcəli hakim Emin Hacıyev aparıb. Qeyd olunub ki, “Fransız müdafiəsi” yarımaçıq debütlərə aiddir, 1 e4 e6 gedişləri ilə başlayır. Debüt London şahmatçıları ilə oyunda müvəffəqiyyət qazanan parisli şahmatçıların şərəfinə belə adlandırılıb. Bu debütdə, əsasən, mərkəz uğrunda mübarizə gedir. Yəni ağlar e4 və d4 gedişləri edərək mərkəzi tutmaq istəyir, qaralar isə e6 və d5 gedişləri ilə ağlara cavab verir.

İnteraktiv şahmat məşğələsi əvvəlcə ümumtəhsil məktəblərinin şagirdləri, sonra həmin təhsil ocaqlarında şahmat fənnini tədris edən müəllimlər üçün təşkil olunub. Bununla yanaşı, həm də rayon şahmat məktəbləri ilə keçilən interaktiv dərsdə muxtar respublika şahmatçılarının oyunları təhlil edilib.

İnteraktiv dərs 200-dən artıq təhsil müəssisəsində şagird və müəllimlər, şahmat məktəblərində isə 200-dən çox şahmatçı tərəfindən elektron lövhə vasitəsilə izlənilib. Dərs zamanı şahmatçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

Məcidli Cavid İftixar oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 41